# Topçubaşov Arbitraj Müsabiqəsi

# 2025
# Memorandum Bələdçisi

Veb-sayt: mcs.bsulawss.org
E-poçt: mootcourtsociety@bsulawss.org

Bu Bələdçinin əsas məqsədi Topçubaşov Arbitraj Müsabiqəsi iştirakçılarına müsabiqənin yazılı mərhələsində memorandumların yazılması ilə bağlı bəzi məqamları izah etməkdir. Bələdçiyə əvvəlki illərin uğurlu memorandumlarından nümunələr daxil edilmişdir.

# Mündəricat

I. Ümumi Tələblər ........ 3
II. Faktlardan və hüquqdan istifadə ........ 3
III. Memorandumun hissələri ........ 3
A. Üz səhifəsi ........ 3
B. Mündəricat ........ 4
C. İstifadə olunmuş mənbələr ........ 6
D. Faktların təqdimatı ........ 7
E. Arqumentlərin xülasəsi ........ 7
F. Arqumentlər ........ 8
H. Arbitraja müraciət ........ 9

# I. Ümumi Tələblər

1. Memorandum bütün hissələr daxil edilməklə maksimum 7000 sözdən ibarət ola bilər. Memorandumda istifadə olunan yazı şrifti Times New Roman, yazının ölçüsü 12 olmalıdır. Başlıqların yazıdan fərqləndirilməsi üçün onlar daha böyük ölçüdə yazıla bilər.
2. İştirakçı komanda Memorandumları Microsoft Word (*.docx) formatında Müsabiqə vebsaytındakı müvafiq bölmə vasitəsilə təqdim etməlidir. Memorandumlar lazımi qaydada adlandırılaraq təqdim edilməlidir. Belə ki, fayl adı komanda nömrəsindən və Memorandumun İddiaçı və ya Cavabdehə aid olmasını göstərmək üçün müvafiq olaraq "İ" və ya "C" hərflərindən ibarət olur (məsələn, 3İ və ya 3C).
3. Bələdçidə "**Memorandumun hissələri**" başlığı altında göstərilən hissələrin Memorandumda göstərilməsi mütləqdir.

# II. Faktlardan və hüquqdan istifadə

1. İşdəki faktlardan hüququ həmin faktlara tətbiq edərək yararlanmağa çalışın. Faktlardan yararlanmaq heç bir halda onların təhrif olunması kimi başa düşülməməlidir. İşin faktları qətidir və komandalar bunları dəyişilməz olaraq qəbul etməlidir.
2. İşdə həm İddiaçı, həm də Cavabdehin xeyrinə istifadə edilə biləcək faktlar mövcuddur. Tərəflərdən birinin lehinə olan fakta qarşı istifadə ediləcək digər faktı elə ilk faktın yanında axtarmağınız mütləq deyildir. Belə ki, həmin fakt İşin daxilində başqa bir yerdə də tapıla bilər. Bir sözlə, həm İddiaçı, həm də Cavabdeh İşin bir çox hissələrində öz lehlərinə və əleyhlərinə faktlar aşkar edə bilər.
3. Aşağıdakı nümunədə bir İşdən olan iki fərqli faktın təqdimatı ilə tanış ola bilərsiniz:

10 mart 2022-ci il tarixində Cavabdeh İddiaçıya rəsmi məktub yazaraq 6 mart 2022-ci il tarixində Rusiya Federasiyasına tətbiq edilmiş sanksiyalara görə artıq oradan taxıl ixrac edə bilmədiyini, bu səbəblə də müqavilə üzrə öhdəliklərini icra edə bilməyəcəyini və Müqaviləyə dərhal xitam verdiklərini bildirmişdir.

Müqaviləyə əsasən Müqavilənin ləğv edilməsi tərəfləri ləğvetmə anınadək Müqavilə üzrə yerinə yetirməli olduqları öhdəliklərin icrasından azad etmir. Buna baxmayaraq, Cavabdeh öz öhdəliklərini pozmuş və nəticədə, İddiaçı taxılı başqa ixracatçılardan almaq məcburiyyətində qalmışdır. Nəticədə, İddiaçıya 1 000 000 ABŞ dolları dəyərində zərər dəymişdir.

# III. Memorandumun hissələri

Memorandumun aşağıdakı hər bir hissəsi hər dəfə yeni səhifədən başlamalıdır.

## A. Üz səhifəsi

1. Üz səhifəsi Qaydalara müvafiq olaraq Memoranduma daxil edilməli olan hissələrdəndir. Komandalar tərəflərin təyinatı ilə birgə adlarını, həmçinin bu səhifənin aşağısında komanda nömrələri ilə yanaşı, Memorandumun İddiaçı və ya Cavabdeh mövqeyindən

yazıldığını göstərməyi unutmamalıdırlar. Məsələn, aşağıdakı nümunənin üz səhifəsindəki bu işarə “10İ”dir:

**TOPÇUBAŞOV BEYNƏLXALQ ARBİTRAJI**

**İDDİAÇI MEMORANDUMU**

**İddiaçı tərəf “Supermarket” MMC**

**10İ**

*(komanda nömrəsi və iddiaçı və ya cavabdeh olmasını göstərən baş hərf)*

**GG.AA.İİİİ**

**(tarix)**

2. Komandalar tərəflərin adlarını İşə nəzər salmaqla müəyyən edirlər. Arbitrajın adı isə “**Topçubaşov Beybəlxalq Arbitrajı**”dır. Tarix hissəsində isə Memorandumun təqdim edildiyi tarix qeyd edilir.

## B. Mündəricat

1. Mündəricatın memoranduma daha rahat şəkildə daxil edilməsi və lazım olduğu təqdirdə avtomatik yenilənməsi üçün “Microsoft Word” və ya başqa mətn proqramının üslub və başlıq *(heading)* funksiyalarından istifadə etmək məsləhət görülür:




2. Belə ki, proqram başlıq kimi işarələnmiş mətnləri mündəricat formasında indeksləyə bilir. "Microsoft Word" proqramında bunun üçün aşağıdakı hissədən istifadə etmək lazımdır:



3. Nümunə mündəricat bölməsi aşağıdakı kimidir:

**MÜNDƏRİCAT**

**Faktların təqdimatı ........................................................................................4**

**Arqumentlərin xülasəsi ........................................................................................5**

**Arqumentlər ........................................................................................6**

**I. Bakı şəhərində yerləşən arbitraj məhkəməsi işə baxmağa tam səlahiyyətlidir, çünki bu müqavilədən və Beynəlxalq Ticarət Palatasının Arbitraj Qaydalarından irəli gəlir ........................................................6**

**II. Tərəflər arasında bağlanmış Podrat Müqaviləsinə uyğun olaraq Cavabdeh öz üzərinə düşən öhdəlikləri lazımi qaydada yerinə yetirmədiyinə görə tam şəkildə məsuliyyət daşıyır ........................................................ 9**

**A. Mövcud işlərin iddiaçının marağını itirmədiyi faktiki dəyəri çıxılmaqla, ödənilən avans İddiaçıya geri qaytarılmalıdır ........................................................ 10**

**B. Cavabdeh “lazımi icra”nı həyata keçirmədiyi üçün həm real zərərin, həm də əldən çıxmış faydanın əvəzini ödəməlidir ........................................................ 11**

**Arbitraja müraciət ........................................................................................ 22**

4. Mündəricatı Memorandumu tamamladıqdan sonra yeniləmək lazımdır. Bunun üçün *Word*-də alətlər panelindəki *References* bölməsindən *Update table* seçimini klikləmək lazımdır. Aşağıdakı şəklə diqqət yetirin:




## C. İstifadə olunmuş mənbələr

Burada Memorandum yazarkən istifadə etdiyiniz qanunvericilik, məhkəmə işləri, doktrinal mənbələr və istifadə etdiyiniz digər etibarlı mənbələri qeyd edirsiniz.

1. Mənbələrin adları tam və anlaşıqlı olmalıdır. Hansı mənbələrin etibarlı olması kimi

suallara cavab tapmaq üçün Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalının Məqalə Tələbləri hissəsində əksini tapan qaydalara baxmağınız tövsiyə olunur: https://bsulawreview.org/submission/policy/

2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

**Milli qanunvericilik**

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 1999 (6.1.8; 21; 337.5; 421.2; 424.5; 425; 442; 443.1; 443.8; 627.1; 629.1; 630.2; 630.4; 633)
2. “Beynəlxalq arbitraj haqqında” Azərbaycan Respublikasının Qanunu, 1999, mad. 7
3. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanunu, 2023, mad. 40
4. ...

**Beynəlxalq mənbələr**

1. Beynəlxalq Ticarət Palatasının Arbitraj Qaydaları (9)
2. “Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında” BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyası (2)
3. US Titan Inc. GuangzhouHua Shipping Co.-ya qarşı 15 fevral 2001-ci il tarixli iş
4. ...

## D. Faktların təqdimatı

1. Bu hissədə memorandumunuzda istifadə edəcəyiniz, yəni hüququ tətbiq edəcəyiniz faktlar lakonik şəkildə xronoloji ardıcıllıqla təqdim edilir.

2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

1. İddiaçı “Atlantida Hotel” Şirkəti ilə Cavabdeh “Peşəkar Tikinti” MMC arasında 2019-cu il yanvar ayında ilkin əlaqələr yaranmış, 10 iyul 2019-cu il tarixində isə Tərəflər arasında Podrat müqaviləsi bağlanmışdır.
2. 10 avqust 2019-cu il tarixdə Cavabdeh və İddiaçı arasında Alğı-satıqısı müqaviləsi, o cümlədən Cavabdehin tək təsisçisi ilə İddiaçı və Cavabdeh arasında bağlanmış Zaminlik Müqaviləsi imzalanmışdır. Zaminlik müqaviləsinə əsasən, Cavabdehin təsisçisi olan Əliyev Əhməd Vəli oğlu, yəni zamin Cavabdehin bütün öhdəliklərinin icrasına təminat vermişdir.
3. ...

## E. Arqumentlərin xülasəsi

1. Bu hissə memorandumda təqdim olunacaq arqumentlər üçün giriş xarakteri daşıyır. Xülasədə qeyd olunan arqumentlərin hər biri “Arqumentlər” hissəsində aydınlaşdırılır və əsaslandırılması aparılır.

2. Nümunə üçün aşağıdakı mətnə diqqət yetirin:

> I. Cavabdeh "lazımi icra"nı həyata keçirmədiyi üçün həm real zərərin, həm də əldən çıxmış faydanın əvəzini ödəməlidir.
> II. Tərəflər arasında bağlanılan Alğı-satqı müqaviləsinə əsasən Cavabdeh əldən çıxmış faydanın dəyərini İddiaçıya ödəməlidir.
> III. Ödənilməli vəsait üzrə Mərkəzi Bankın uçot faiz dərəcəsi ilə faizi Cavabdeh tərəfindən İddiaçıya ödənilməlidir.
> IV. ...

## F. Arqumentlər

1. Bu hissə memorandumun ən əsas hissəsidir. Burada İşdə qoyulmuş məsələlər, yəni "Arqumentlərin xülasəsi" hissəsində qeyd olunan başlıqlar üzrə əsaslandırmalar aparılır.

2. Hüquqi əsaslandırma metodu kimi IRAC (I – Issue, R – Rule, A – Application, C – Conclusion) metodundan istifadə oluna bilər. Bu metoddan istifadə zamanı barəsində mövqe irəli sürülməli olan məsələ (issue) qeyd edilir. Daha sonra tətbiq olunacaq qaydalar (rule) sıralanır və ehtiyac olarsa, qaydaların izah və təfsiri təqdim olunur. Təqdim olunmuş qayda və onun izahı faktlara tətbiq (application) olunur. Yekunda, adətən bir cümlə ilə əsaslandırmanın məntiqi nəticəsi (conclusion) təqdim edilir.
Qeyd: IRAC metodunun alternativ variantı kimi CREAC *(C – Conclusion, R – Rule, E - Explanation, A – Application, C – Conclusion)* metodundan da istifadə oluna bilər.

3. Hər başlıqda müvafiq qaydanın (rule) yalnız bir dəfə tətbiq edilməsi mütləq deyildir. Bir başlıq və ya məsələ üzrə müxtəlif hüquq qaydaları sistemli şəkildə izah, təfsir və tətbiq edilə bilər. Daha rahat başa düşülməsi üçün bir məsələnin əsaslandırılması ayrı-ayrı paraqraflara da bölünə bilər.

4. Nümunə üçün aşağıdakı sadə əsaslandırma mətninə baxa bilərsiniz:

> 1. Cavabdeh öz vəzifələrini yerinə yetirməyərək müqavilə üzrə nəzərdə tutulmuş öhdəlikləri icra etmədiyi üçün maddi məsuliyyət daşımalıdır. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra "Mülki Məcəllə") 442-ci maddəsi "öhdəliyin icra edilməməsi"nə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və yaxud da öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) kimi anlayış vermişdir. Hazırkı Podrat Müqaviləsinin 1.1-ci maddəsinə nəzər yetirsək, görürük ki, Podratçı 3 (üç) il ərzində bu Müqavilə üzrə razılaşdırılmış tələblərə cavab verən oteli inşa edərək Sifarişçiyə təhvil verməyi öz üzərinə götürür. Bununla yanaşı, Müqavilənin 2.2-ci maddəsində sözügedən otelin tikilmə mərhələlərinin ardıcıllığı cədvəli qeyd olunmuşdur. Cavabdeh isə nəzərdə tutulan bu mərhələlərin ilkini - ərazinin tikinti üçün hazırlanması və binanın bünövrəsinin tökülməsini lazımınca, düzgün həyata keçirməmiş, cədvəl üzrə digər işlərin isə ümumiyyətlə heç birini icra etməmiş, beləcə işləri İddiaçıya təhvil verməmişdir.

**Qeyd:** "Arqumentlər" başlıqlarında qeyd olunanlar *Styles* hissəsindəki *Heading 2* kimi işarələnməlidir ki, "Mündəricat" indekslənərkən "Tələblər" başlığının alt başlıqları kimi mündəricatda əks olunsun (bu o deməkdir ki, "Faktların təqdimatı", "Arqumentlərin xülaləsi" və digər əsas başlıqlar *Heading 1* kimi işarələnir):




## H. Arbitraja müraciət

1. Bu hissədə arbitraj tribunalından hansı məsələlər üzrə və hansı qaydada qərar qəbul etməsi üçün xahiş etdiyiniz göstərilir.
2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

**Arbitraja müraciət**

Yuxarıda qeyd olunan faktiki halları nəzərə alaraq və qeyd edilən hüquq normalarına əsaslanaraq Arbitraj tribunalından

**XAHİŞ EDİRİK:**

1. İşə, müqaviləyə, habelə qanunvericilik aktlarına müvafiq olaraq Bakı şəhərində yerləşən Arbitraj Məhkəməsində baxılsın.
2. 1.700.000 ABŞ dolları həcmində avans İddiaçıya geri qaytarılsın və Cavabdeh tərəfindən ödənilməli bütün vəsaitin qaytarılması gecikdirildiyi üçün 15 may 2022-ci il tarixindən vəsait ödənilənə qədər Azərbaycan Respublikası qanunvericiliyinə əsasən uçot faiz dərəcəsi ilə (9%) faiz İddiaçıya ödənilsin.
3. ...